Kredo 2020. 16 yanvar. S.16.

# "Nurlu əməllərin işığında"

18 dekabr 2019-cu ildə Nizami Kino Mərkəzində məşhur Azərbaycan milyonçusu AĞA MUSA NAĞIYEVƏ həsr olunmuş “Nurlu əməllərin işığında” sənədli filminin təqdimat mərasimi keçirilirdi.

Təqdimat mərasimini milyonçunun nəvəsi, Ağa Musa Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin sədri Dilarə Ağamusa Nağıyeva - Muxtarova giriş sözü ilə açdı, milyonçunun həyat və fəaliyyətindən danışdı. Sənədli filmin ərsəyə gəlməsində Millət vəkilləri Qənirə xanım Paşayevanın, Rəfael Hüseynovun, Elman Nəsirovun və Musa Urudun mənəvi köməkliklərindən danışdı. Gələnlərə təşəkkürünü bildirdi və həddindən çox insanların gəldiyinə görə dedi ki, mən bilmirdim ki, Ağa Musa Nağıyevi bir belə istəyənlər var imiş! Sonra Millət vəkili,politoloq hörmətli Elman Nəsirov milyonçudan və milyonçunun nəvəsi Dilarə xanımın əvəzsiz fəaliyyətindən danışdı.Sənədli film tamaşaçılar tərəfindən çox diqqətlə izlənildi və alqışlarla sona çatdı. Sənədli filmə baxanda təsirləndiyim məqamlar çox oldu.Milyonçunun oğlu İsmayılın tez vəfat etməsi, öz nəşinin 4-cü yerində sakitlik tapması və vərəsəsinin imkansız olduğu halda İsveçrədəki pul vəsaitinin hamısını məcburən “imkansız”lara bağışlaması ən təsirləndiyim məqamlardan idi.Yəni pul vəsaitinin cüzi bir hissəsinin belə vərəsəsi Fərəc Nağıyevə verilməməsinə çox pis oldum.

Uzun zaman keçsə də Azərbaycan milyonçusu Ağamusa Nağıyev xalqımız tərəfindən xatırlanır və xatırlanacaq!

Məni tədbirə dəvət etdiyinə və Ağa Musa Nağıyevə həsr etdiyi “Hər ömür bir tamaşa (Bakı gecələri)” adlı kitabını mənə hədiyyə etdiyinə görə hörmətli Dilarə xanıma dərin minnətdarlığımı bildirirəm. Elə həmin günün səhərisi (19.12.2019) tədbirdən ilhamlandım və “SAMAN SATAN OĞLUYAM” adlı şeirimi yazdım. Şeirimi Samansatan oğlu çox çətin və gərgin əməkdən və işdən sonra yüksək mərtəbəyə çatan, lakin bəziləri kimi olmayan, keçmişini unutmayan milyonçu Ağa Musa Nağıyev və onun nəvəsi Dilarə Ağamusa Nağıyeva - Muxtarovaya həsr edirəm.



Samansatan oğluyam,
Dövlətlinin atası.
Neftimizi satsam da,
Olmadım Yurd satası.

Düzdür, mən milyonerəm,
Öyünməyi bilmirəm.
Saman satdığım anı
Mən unuda bilmərəm.

Ar olsun Sovetlərə,
Ruhumu əzdi keçdi.
Nağıyevdir demədi,
Lakin o sezdi, keçdi.

Kaş ki heç ölməyəydim,
Rahatlıq tapammadım.
Qoymadılar, orada,
Ruhumla yatammadım.

Ailəm təşəbbüs etdi,
Ruhumu da şad etdi,
Yerim dəyişdirildi,
Ruhum da yata bildi.

Nəvəm mənim sevincim,
Onsuz ruhum dolanmaz.
Kim deyər,kitablarda
Ruhum heç xatırlanmaz?

Təkcə 7 kitabda
Ruhum rahatlıq tapmır.
Hər yerdə anılıram,
Düşmən rahatlıq tapmır.

***Sevindik NƏSİBOĞLU.***
***Gənc yazar, Həqiqət Tarixi Araşdırmalar İctimai Birliyinin Gənc İstedad fəxri diplomçusu.***
***19.12.2019***